## *Yanvar bayatıları*

Gül əkdim, qara düşdü,
Taleyim dara düşdü.
Elin ağır bəlası
İyirmi yanvara düşdü.

Nə şaham, nə vəzirəm,
Cox sərgərdan gəzirəm.
Oğul, qolunu tapdım,
Bədənini gəzirəm.

Tək məzaram düzdə mən,
Təpədə sən, düzdə mən.
Balam geri qayıtsa
Ömr edərəm yüz də mən.

Alammadım kamımı,
Söndürdülər şamımı.
Əli qanlı cəlladlar
Öldürdü İlhamımı.

O gün ölüm, qan oldu,
Gözlənməz tufan oldu.
Ana paltar sərəndə
Qanına qəltan oldu.

Güllə elə ələndi
Yer-göy qana bələndi.
Dünyanın işinə bax,
Uşaq da güllələndi.

Əliyeva N. Bakıdakı Famil İsgəndərov adına
157 saylı məktəbin müəllimi

Əliyeva N. Yanvar bayatıları // Azərbaycan müəllimi. - 2001. - 25-31 yanvar.